Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti: "İctimai və dövlət maraqlarının müdafiəsi"**

# Solmayan sevdaların Kərkük həsrəti

**Onun adı çəkiləndə çox sevdiyim bir səsin sehrinə düşürəm. İnsan qəlbini ehtizaza gətirən səslərin min avazından, cazibəsindən çox yazmışam, amma indiyədək unudulmaz Nərminə Məmmədovanın nəfəsindən qopan səsin rəngini ayırd edə bilməmişəm. Bəlkə elə bu da bənzərsiz ifaçının məhz özünəməxsus açılmaz sirridir. Nə isə... Nərminə xanım mənim üçün əlim yetməz, ünüm çatmaz, amma qəlbimdə həmişə yırğalanan Kərkükdən bir töhfə idi. Onun Sinan Səidlə oxuduğu nəğmələrdə bu elin minbir arzusu, həsrəti və niskili duyulardı:**

*Evlərinin önü yonca,*
*Yonca qalxıb dam boyunca...*

misraları varlığımda qəribə təlatümlər yaradırdı. Sonralar bu həzin və məlahətli səsin ardını bir kitabın səhifələrində üzləşdiyim mənəvi aləmdə tapdım. Bu, filologiya elmləri doktoru, professor, görkəmli ədəbiyyatşünas-alim Qəzənfər Paşayevin "Altı il Dəclə-Fərat sahillərində" kitabı idi. Unudulmaz tənqidçi Yaşar Qarayevin çox dürüst söylədiyi bir fikri təkrarlamaq istərdim: "Bizim üçün İraq Füzulidən, Füzuli Kərbaladan başladığı kimi, Kərkük də Qəzənfər Paşayevdən başlayır". Bu, həqiqətən də belədir.

Əlinə qələm alan gündən Söz adlı bir mülkün ucaldılmasında böyük cəfakeşlik və can yanğısı ilə çalışan Qəzənfər Paşayevin indiyədək müəllifi olduğu, tərtib etdiyi, tərcümədə çatdırdığı və yaradıcılığı haqqında olan kitablar oxucular tərəfindən maraqla qarşılanıb. Bu yay - 27 avqustda hörmətli alimin 79 yaşı tamam olacaq. Dörd il öncə "Təhsil" nəşriyyatında çap edilmiş "Seçilmiş əsərləri"nin yeddi cildini yenidən vərəqlədim... Həmin kitabları müəllifin ədəbi hesabatı da adlandırmaq olar. Qəzənfər Paşayevin böyük ustalıqla ucaltdığı Söz mülkünün bu yeddi qatının hər birinin öz sehri var. Qəzənfər Paşayevin 7 yox, 77 cildi də işıq üzü görsə (inşallah), bir arzusu əbədidir: bu da Kərkük eşqidir. Özü demişkən,

## BU SEVDA ÖLÜNCƏDİR

Birinci cilddə ilk olaraq İraq-türkman folklorundan söz açılır. Bu da təbiidir. Çünki hər bir xalqın folkloru onun ruhunun, psixologiyasının, məişətinin, adət-ənənəsinin, həyat tərzinin, dünyagörüşünün, təfəkkürünün güzgüsüdür. Bir xalqı yaxından tanımaq istəsən gərəkdir ki, ilk növbədə onun folklorunu öyrənəsən. Bu cildə Ön söz kimi salınan "Şah əsər" adlı yazını rəhmətlik Əbdüllətif Bəndəroğlu 1991-ci ildə qələmə alıb: "Qəzənfər Paşayev İraqda yaşadığı uzun illər boyunca həm İraq xalqını yaxından tanıdı, həm də İraqda yaşayan - qonuşduqları dilin Azərbaycan dilindən fərqli olmayan İraq türkmanlarının ədəbiyyat və folkloru üzrə tədqiqatını davam etdirdi".

Birinci cild dörd fəsildən ibarətdir. Lap təbiətdəki kimi. Kitabın bu dörd fəslindən Kərkükün havası gəlir. Ətirli yazı duyulur, barlı payızı, qürbət soyuğu, yadların basqısı, dostların can yanğısı, yenə də ümid, dirçəliş... beləcə, bütün fəsillərin rəngi çökmüş birinci cilddə inancların, duaların, nəğmələrin, xoyratların ahənginə qoşulub türkman ellərini qarış-qarış dolaşırıq. Bu elin folklorunda xüsusi yer tutan beşik nəğmələri bizim üçün daha doğmadır. Gözümüzlə onları su kimi içdik. Ürəyimiz titrədi. Türkiyədə "ninni", Azərbaycanda "layla" kimi oxunan beşik oxşamaları türkman folklorunda "leyla" kimi tələffüz edilir:

*Oyaq qallam yatınca,*
*Bəklərəm Ay batınca.*
*Qolum yastıq edərəm,*
*Sən hasilə çatınca.*
*Leyla balam, leyla,*
*Leyla gülüm, leyla.*

Nə qədər gözəl, nə qədər doğma. Əlbəttə, türkman folkloru ilə Azərbaycan şifahi xalq ədəbiyyatı arasında forma və məzmunca müəyyən fərqlər duyulsa da, ruh, məna, daxili bağlılıq, istək, arzu eynidir. Uzun müddət bir-birimizlə əlaqələrimizin olmaması nəticəsində Kərkük ellərində dillər əzbərinə çevrilən dastanlardan, nağıllardan, lətifələrdən yetərincə xəbərsiz qalmışıq. Qəzənfər Paşayev çox haqlı olaraq söyləyir ki, türkman folkloru Azərbaycan folklorunun hərtərəfli öyrənilməsi baxımından əvəzsiz xəzinədir. Atalar sözləri və məsəllərlə bağlı aparılan araşdırmalar da öz dolğunluğu ilə diqqət çəkir. Bəllidir ki, hər bir atalar sözü məxsus olduğu xalqın təfəkkürünü, həyat tərzini, düşüncə və ağlını əks etdirir. Qəzənfər Paşayev haqlı şəkildə əsaslandırır ki, atalar sözü və məsəllər sadəcə folklor nümunələri yox, həm də tarixi sənədlərdir. Türkman atalar sözləri də Şərq milli koloritini əks etdirən, dərin mənası ilə səciyyələnən, iti ağıl və müdrikliyin bəhrəsidir. Türkmanlar deyirlər: "Nənəli qız bəlli qız, nənəsiz qız dəlli qız". Azərbaycanda da belə söyləyiblər: "Analı qızın özü, anasız qızın sözü böyüyər". Yaxud da, Kərkükdə eyhamla söz atarlar: "Qəmbərsiz dügün olmaz". Azərbaycanın müxtəlif bölgələrində (adlar dəyişilə də bilər) bu iradı belə söyləyiblər: "Hətəmsiz nə toy", yaxud da "Bayraməli gəlməsə, toy başlamaz".

1987-ci ildə işıq üzü görən "Altı il Dəclə-Fərat sahillərində" adlı sanballı elmi-publisistik, daha dəqiq söyləsək, səyahət salnaməsi də bu cildə salınıb. Yadımdadır, 80-ci illərdə 130 min tirajla çap edilən bu məşhur əsər əllərdə gəzdi, dillər əzbərinə çevrildi. Məhz bu kitabın vasitəsilə biz nəslə bəlli oldu ki, bizdən o qədər də iraq olmayan İraqda dilimizdə danışan, dilimizdə düşünən böyük bir elat var - adına türkman deyirlər.

Tədqiqatçılar çox haqlı olaraq Qəzənfər Paşayevi "Azərbaycan Kərkükşünaslığının banisi" adlandırırlar. Məhz onun zəhməti və elmi hünəri sayəsində Kərkük elinin, dilinin, folklorunun, tarixinin mükəmməl öyrənilməsi ilə bağlı müxtəlif kitablar işıq üzü gördü. Alim böyük məhəbbətlə təsdiq etdi ki, həqiqətən gözdən uzaq olsa da



## İRAQ KÖNÜLLƏRDƏN İRAQ DEYİL

Söz mülkünün ikinci qatında ilk görüşdüyüm "Kitabi-Dədə Qorqud" İraq-türkman ləhcəsi və ədəbi dilimiz" adlanır. Müəllif yazır: "İraq türkmanlarının ləhcəsində "Kitabi-Dədə Qorqud" dastanlarının dil özəllikləri ilə üst-üstə düşən həm leksik, həm də fonetik xüsusiyyətlər çoxdur". Qəzənfər Paşayevin araşdırmaları çox maraqlı və önəmli faktların varlığından xəbər verir. Vaxtilə Üzeyir Hacıbəylinin məqalə və felyetonlarında, eləcə də "Kitabi-Dədə Qorqud"da rast gəlinən, amma dilimizdə işlək olmayan elə sözlər var ki, hələ də İraq-türkman ləhcəsində yaşamaqdadır. Müəllif ulu öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bir müdrik kəlamı da yada salaraq bizə çox mətləbləri xatırladır: "Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Qüzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır".

Böyük Azərbaycan alimi Nəsrəddin Tusinin məqbərəsinin Bağdadda tapılması da Qəzənfər Paşayevin adı ilə bağlıdır. "Kərkük dialektinin fonetikası" adlı bölmədə isə təhlilə çəkilən məsələlər dil tariximizin hərtərəfli tədqiqi işində mühüm əhəmiyyətə malikdir. Qəzənfər Paşayev dilçi alim kimi Kərkük dialektinin fonetikasında özünü göstərən xüsusiyyətləri yazılı abidələr, başqa türk dilləri ilə də müqayisə edib.

Ötən illərin birində Qəzənfər Paşayevin işıq üzü görən növbəti kitabı "Borcumuzdur bu ehtiram" adlanırdı. Üçüncü cilddə məhz həmin topludakı yazılar yer alıb.

## İNCİLƏR XƏZİNƏSİ

Söz mülkünün dördüncü qatı əsl incilər xəzinəsidir. Bir-birinə bənzəməyən bu gövhərlərin hərəsinin öz dəyəri, qiyməti, söz sənətinin parlaqlığında xüsusi əhəmiyyəti var. Bu yaxınlarda haqq dünyasına qovuşan akademik Bəkir Nəbiyevin "Bir neçə söz" adlı yadigar fikirləri qolumuzdan tutaraq yorulmaq bilmədən səmərəli araşdırmalarla məşğul olan Qəzənfər Paşayevin - işıqlı bir ziyalımızın çoxsaylı elmi və publisistik məqalələrinin məziyyətləri ilə tanış etdi. Müəllifin yenə də ürəyində əbədi lövbər salan Kərkük mövzusuna sadiqliyi diqqət çəkir. "Nəsimi divanının İraq nüsxəsi və naməlum şeirləri" adlı məqaləsi əslində ədəbiyyatımız üçün qiymətli tapıntıdır. Təqdim olunan əsər indiyədək Nəsimişünaslıqda məlum deyildi. Qəzənfər Paşayev Nəsiminin bizə bəlli olmayan şeirlərini üzə çıxarmaqla bu sahəyə öz töhfəsini verdi. Cəfakeş alimin Nəsimi ilə bağlı başqa bir yeniliyi də onun təvəllüdü və doğulduğu yerlə bağlıdır. "Nəsiminin həyat və yaradıcılığına yeni baxış" adlı araşdırmadan məlum olur ki, İmaməddin Nəsimi İraqda türkmanlar (azərbaycanlılar) yaşayan Kifri qəzasının Nəsim kəndində anadan olub (təəssüf ki, bu kənd indi yoxdur. Müharibə zamanı yerlə-yeksan edilib - F.X.). müəllif tarixi faktlarla göstərir ki, bəylər arasında başlanan döyüşdən qurtulmaq üçün minevlik bir el İraqdan Şamaxıya qaçıb. Hamı burada məskunlaşa bilməsə də, qalanlar arasında Nəsimi və qohum-əqrabası da olub.

## DEYİLƏN SÖZ YADİGARDIR

Qəzənfər Paşayevi yaxından tanıyanlar bilirlər ki, həm də cazibəli danışıq qabiliyyəti ilə seçilən, yadda qalan çıxışları ilə dinləyici qəlbini fəth edən gözəl natiqdir. Həmkarlarının yubileyində, ədəbi məclislərdə, kitab təqdimatlarında, yaradıcılıq gecələrində, radio və televiziyalarda onun müxtəlif mövzularda çıxışlarını eşitmişəm. Həmişə də heyrətlənmişəm. Bir neçə dəqiqənin içində ünvanına xoş söz deyəcəyi insanın, şairin, alimin, yazıçının, aşığın əsas cizgilərini ustalıqla ifadə edər. Sözlə həmin şəxsiyyətin portretini yaratmaq natiqdən təkcə danışıq qabiliyyəti, bədii düşüncə tələb etmir. Gərəkdir ki, həm də böyük ürək sahibi olasan ki, başqasının məziyyətini dilə gətirməyə qısqanclıq keçirməyəsən. Bu mənada Qəzənfər Paşayevin daxili aləmi çox zəngindir.

Müəllifin beşcildliyində məhz belə çıxışlarının mətnləri salınıb. Doktorluq və namizədlik dissertasiyalarına yazdığı rəylərdə də obyektiv və qayğıkeşdir. Bu cilddə müəllifin dörd məqaləsi də yer alıb. Xalq şairi Zəlimxan Yaqubla bağlı yazdığı "Gör ürəyin nə deyir" düşüncələri müəllifin kövrək duyğularının, narahatlığının bəhrəsidir.

Akademik Fuad Qasımzadə haqqındakı fikirlər də müəllifin səmimiyyətindən su içib. Bu səbəbdən də təsirli və düşündürücüdür. Unudulmaz Fuad Qasımzadə həqiqətən də əsl ziyalı, örnək şəxsiyyət idi. İnsanın dediklərinə o zaman inanılır ki, ürəyində əbədi işıq olsun. Qəzənfər Paşayev işıqlı bir şəxsiyyətdir. Ona görə də yazılarının bütün ahəngində nur var.

## ƏCNƏBİ YAZIÇILAR AZƏRBAYCANDA

Qəzənfər Paşayevin "Seçilmiş əsərləri"nin VI cildinə xarici ölkə ədəbiyyatının görkəmli nümayəndələrindən etdiyi tərcümələr toplanıb. Burada Qərb ədəbiyyatının məşhur yazıçılarının Azərbaycanla bağlı qələmə aldığı əsərlərə yer verilib. Onu da qeyd edək ki, bu əsərlər məhz Qəzənfər Paşayev tərəfindən ötən əsrin 80-ci illərində orijinaldan tərcümə edilərək oxuculara təqdim olunub və rəğbətlə qarşılanıb.



■ Flora XƏLİLZADƏ
*əməkdar jurnalist*

## SADİQLİK

Demək olar ki, kitabın kitabının bağlandığı bir zamanda Qəzənfər Paşayevin "Seçilmiş əsərləri"nin yeddi cildinin hamısını diqqətlə oxuyub başa çatdırdım. Məcburi, könülsüz və nəyinsə xatirinə yox. Ürəyimdən gələn istəklə, maraqla, böyük həvəslə və məhəbbətlə. Bu, müəllifin böyük nailiyyətidir. Oxucu qəlbində qazandığı inam və ehtiramdır. Bilirəm ki, bu cildləri kim əlinə alsa, onu oxumamış yerə qoymaz. Ən azından, vərəqləyib müəllifin toxunduğu mövzulara nəzər yetirəcək. Birini oxumaq bəs edər ki, onun cazibəsinə düşəsən. Vaxtilə çap edilmiş əsərlərinin təkrar oxunması və ləzzət etməsi də köhnə və sevdiyin tanışla yenidən rastlaşmağa, görüşməyə bənzəyir.

"Seçilmiş əsərlər"in VII cildinə alimin rusca çap olunmuş "İraq-türkman folklorunun janrlar sistemi" monoqrafiyası, ingiliscə ölkəşünaslıqdan bəhs edən "İngiltərədən söz açaq" dərs vəsaiti (universitet tələbələri üçün), yenə bu dildə xaricdə çıxan, eləcə də rusca, türkcə məqalələri daxil edilmişdir.

VII cilddə toplanan əsərlər vaxtilə (bəziləri də təkrar-təkrar) kitab kimi çap edilib. Əksəriyyətini də elə o vaxtlar oxumuşdum, böyük zövq almışdım. İndi eyni rəğbət və həvəslə bu yeddi qatın guşələrində dolandım. Duyduğum bu oldu ki, Qəzənfər Paşayevin sənət aləmində öz zirvəsi var. Məmməd Araz deyərdi ki, sənətdə son zirvə olmur. Çünki bu zirvələr silsilə dağlar kimi bir-birinə bənzəyir və uzanıb gedir. Bu mənada Qəzənfər Paşayevin sənət zirvəsindəki yeddi silsiləni oxuyub keçsək də, qarşıda yeni zirvələr görünür.

Son olaraq bir fikri yenə də vurğulamaq istərdim. Əvvəldən axıra kimi Qəzənfər Paşayev yaradıcılığından sarı sim kimi keçən Kərkük mövzusuna sadiqliyi ilə diqqət çəkib. Özünün dediyi kimi, doğrudan da bu sevda ölüncədir. Çox arzu edərdik ki, İraqın başı üstündəki qara buludlar tezliklə çəkiləydi. Müsəlman dünyasının o müqəddəs torpaqlarına əbədi bir sülh qanad sərəydi. Söz qüdrətimizin əbədi heykəli Məhəmməd Füzulinin, dünya elminin zirvəsi sandığımız Nəsrəddin Tusinin və digər müqəddəslərin ruhları dinclik tapaydı. Yenə də yollara iz düşəydi. Günün birində bizim də illər boyu köksümüzdə arzu kimi böyüyən, həsrət kimi sinəmizdə nisgilə dönən bir istəyimizə çataydıq. Başımızı dahi Füzulinin məqbərəsi önündə əyərək özümüzü rahat hiss edərdik. O günün də olacağına və bu mövzuda Qəzənfər Paşayevin ürək açan, könül oxşayan, fərəh doğuran yeni yazılarını da oxuyacağımıza inanırıq...

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***